## Sual. Qapalı test suallarının tərtibi

Şagirdlərin mənimsəmə səviyyəsini artırmaq, dəqiq qiymətləndirmə aparmaq, onları tənqidi düşünməyə yönəltmək üçün müəllimin sual vermək bacarığı olmalıdır. Doğru sual qoymaq doğru düşünmək və doğru cavab verməyə təşviq etmək deməkdir. Həmçinin şagirdlərə də doğru sual vermək bacarığı öyrədilməlidir. Dərs icmalı qurularkən veriləcək suallar əvvəlcədən müəyyən olunmalıdır. Bu, prosesin gedişinə təsir göstərir və bu prosesdə gedən inkişaf da yeni suallar verməyi tələb edə bilər. Ancaq bu sualları əvvəlcədən hazırlamaq müəllimin işini asanlaşdırır. Suallar dərsin hədəflərinə uyğun qurula bilər. *“Şagird bu dərsin sonunda hansı bacarıqlar qazanacaq?”* sualı veriləcək sualların məzmununu müəyyənləşdirir.

Düzgün sual şagirdi düşünməyə və danışmağa sövq edir. Təhsil tarixində ən çox istifadə olunan sual-cavab üsulu öyrənmə nəzəriyyələrində böyük dəyişikliklərin olmasına baxmayaraq bu gün öz aktuallığını qoruyur və geniş şəkildə tətbiq olunur.

Suallar 4 qrupa bölünür: **xatırlamağa sövq edən suallar, mühakimə yürütməyə istiqamətləndirən suallar, dəyərləndirməyə istiqamətləndirən suallar, yaradıcı düşünməyə yönləndirən suallar.**

**1. Xatırlama tipli suallar**: Xatırlama sualı öyrəndiyini yada salmağa imkan verən sualdır. Belə suallar verərkən müəllim yadda saxlamağa layiq məlumatları müəyyən etməlidir.

**2. Mühakimə yürütməyə istiqamətləndirən suallar:** Bu tip suallar səbəb-nəticə əlaqələrini göstərməyi tələb edir. Şagird belə sualları cavablandırarkən onun mühakimə yürütmə, səbəb-nəticə əlaqələrini anlama və izahetmə bacarığı ön plana çıxır.

**3. Dəyərləndirməyə istiqamətləndirən suallar:** Müəllim burada müxtəlif informasiya arasında əlaqə yaratma, təhlil və sintez etmə, qərar vermə səviyyəsinə gəlməyi təmin edəcək suallar verməlidir. Bununla yanaşı, şagird bir ideyanın, mövzunun, şifahi və ya yazılı mətnin ifadə etdiyi fikrin doğru və ya səhv olduğuna, bir planın tətbiqi üçün hər hansı bir tədbirin məntiqə uyğun olub-olmadığına qərar verə bilməlidir. Şagirdlər bu tip düşünmə bacarığına praktikada yiyələnməli və bütün qərarlarını öz düşüncələrinə əsasən verməlidir.

**4. Yaradıcı düşünmə bacarığını artıran suallar:** Yaradıcı düşünmə yeni təklif və fikirlər irəli sürməyi, həll yolları tapmağı, yeni üsullar kəşf etməyi əhatə edir. Belə suallar şagirdlərin öz cəhdləri, fikirləri üzərində düşünüb, təhlil aparmasına, hazır bilikləri mənimsəmək əvəzinə, araşdırmağa və öz mənbələrinə müraciət etməsinə sövq edəcək formada olmalıdır. Belə olduqda yaradıcı düşünmə yaranır və inkişaf edir. Məsələn:

«Faşizm ideyası qalib gəlsəydi, tarix necə davam edərdi?», «Günəş olmasaydı, Yer üzündə həyat necə olardı?». Bu tip suallar əqli inkişafa xidmət edir.

**Faydalı sualın xüsusiyyətləri (Düzgün sual necə olmalıdır?)**

1. Sual şagirdin başa düşəcəyi formada verilməli, açıq, sadə, anlaşılan və birbaşa olmalıdır. Buna görə də qapalı, qarışıq, şübhə yaradan suallardan qaçmaq lazımdır. Doğru sualın cavabı həmin günkü mövzunu əhatə edəcək məzmunda olur.

2. Sual verməyin məqsədi öyrənməyə motivasiya etməkdir. Buna görə də, yaxşı sual şagirdin zehnini fəallaşdırmalıdır. Kitabdakı bilikləri təkrarlatdıran suallar motivasiyaedici ola bilməz. Yaxşı sual şagirdi düşünməyə sövq etməlidir.

3. Şagirdə cavab verə bilməyəcəyi sualı verib onu utandırmaq və ya onda ümidsizlik yaratmağın bir faydası olmadığı kimi, ona çox asan suallar vermək də vaxt itkisindən başqa bir şey deyil. Bu səbəbdən də yaxşı sual dərsin hədəfləri ilə yanaşı, şagirdin yaşına, bacarıq və maraq dairəsinə də uyğun olmalıdır.

4. Yaxşı sual qazanılmış bilikləri yoxlamaqla yanaşı, mövzu ilə bağlı problemlərə həll yolları axtaran formada olmalıdır.

**Uğurlu sual vermə texnikası**

1. Müəllim sualı xoş niyyətlə, dostcasına, asan anlaşılan və səmimi danışıq tərzi ilə soruşmalıdır. Suallar şagirdə uyğun cavabı almaq üçün verilməlidir. Şagird suala cavab verə bilmirsə və ya verdiyi cavab qaneedici deyilsə, bu hal müəllim tərəfindən başa düşülməli, heç bir halda şagirdin şəxsiyyətinə toxunulmamalıdır.

2. Bütün sinfi maraqlandıran suallar verilməli, sualın cavabını fikirləşmək üçün şagirdlərə vaxt verilməli və daha sonra suala cavab verəcək şagird müəyyənləşdirilməlidir. Beləcə bütün şagirdlərə sual-cavabla bağlı düşünmək fürsəti verilir. Yəni suala cavab axtarma sürəti müəllim tərəfindən müəyyən edilir, ən tez fikirləşib əlini qaldıran şagird tərəfindən deyil. Sual verdikdən sonra bir qədər pauza verib, hamının düşünməsi üçün vaxt verən müəllim ləng düşünənləri də prosesə cəlb edir. Həmçinin bu zaman suala kimin cavab verəcəyi əvvəlcədən məlum olmadığı üçün şagirdlər gözüaçıq və diqqətli olurlar. Əksər hallarda sual sinfin müəyyən hissəsinə ünvanlanırsa, onda digər şagirdlər verilən sualı dinləmirlər.

3. Şagirdlərin diqqəti yayınmasın deyə təkrar suallar vermək olmaz. Əgər sualın başa düşülməməsinin məqbul bir səbəbi varsa, sualı təkrarlamaq olar. Sual şagirdin diqqətsizliyinə görə başa düşülməyibsə, ən yaxşı variant sualı təkrarlamaq yox, cavabını digər şagirddən soruşmaqdır.

4. Sual verərkən sinfin bütün şagirdlərinə cavab haqqı vermək sinfi fəallaşdırır. Şagirdə parta, əlifba, nömrə sırasına görə sual verməkdən çəkinmək lazımdır. Çünki bu zaman şagird növbəsi gələnədək prosesdən yayınacaqdır.

5. Real düşünməni fəallaşdıran, motivasiyaedici suallar verilməlidir.

6. Suallar bəzi şagirdlərin asanlıqla cavab verəcəyi qədər sadə, bəzi şagirdlərin isə daha dərindən düşünüb cavab verə biləcəyi qədər çətin olmalıdır.

7. Suallar «Hə» və ya «Yox» kimi qısa cavablar tələb edən olmamalıdır.

8. Onlar yaradıcı düşünməyə təşviqedən və inkişafetdirici məzmunda olmalıdır. Bu cür suallar «Hansı şərtlərlə?», «Necə?», «Nəyə görə?» və ya «Müqayisə edin» kimi ifadələrlə verilməlidir. «Kim bilir?», «Bilən varmı?», «Kim deyəcək?» kimi suallardan yayınmaq lazımdır.

9. Sinfin diqqətli, fəal olması üçün maraq dairəsinə uyğun, düşündürücü, istiqamətverici suallar verilməlidir.

## Qapalı test sualları

1. Əsas fikir cavablarda deyil, sualın kök hissəsində verilməlidir.
2. Sualın kökündə «Hansı deyil?» kimi şablon ifadələr işlədilməməlidir.

***Cavab variantları***

1. Variantların dəqiq olmağına fikir verin.
2. Variantlardan yalnız biri doğru cavab olmalıdır.
3. Digərlərindən çox fərqlənən variantlar verməyin.
4. Məzmuna uyğun olaraq variantlar eynimənşəlli olmalıdır.
5. Variantların uzunluğu bir-birinə yaxın olmalıdır.
6. «Bilmirəm» variantından istifadə etməyin.
7. Düzgün varianta istiqamətləndirməyin.
8. Ağıla, məntiqə uyğun aldadıcı üsullardan istifadə edin.
9. Düzgün, lakin mövzuyla əlaqəsi olmayan variantlardan istifadə edin.
10. Yumoristik variantlardan istifadə etməyin.

**Test suallarının məzmunu**

1. Sualı lazımsız məlumatlar üzərində deyil, şagird üçün vacib olan məsələlər üzərində qurun.

Testin məzmunu həyatla əlaqələndirilmiş şəkildə tərtib olunmalı və şagirdlərdə *«Hə, bunu öyrənməyə dəyər!»* fikri yaratmalıdır. Bunun üçün lazımsız məlumatlardan imtina etmək lazımdır. Test sualları tərtib edənlər əksərən cavablandırmağa dəyməyəcək

qədər əhəmiyyətsiz suallar hazırladıqları üçün tənqid olunurlar. Sual tərtibçisi kimi nəyin vacib olub-olmadığına qərar vermək lazımdır. Aşağıda bu cür suallardan bir neçə nümunə verilmişdir:

- *«Cinayət və cəza»nı kim yazıb?*
- *Zambiyanın paytaxtı haradır?*

Şagird öyrəndiklərinin və cavablandırdığı sualların öyrənməyə və soruşulmağa dəydiyinə inanmalıdır.

2. Yüksək səviyyədə düşünməyə təşviq edin.

Qərar qəbul etmək, tənqidi düşünmək, problem həll etmək və yaradıcılıq tələb edən suallar şagirdlərin biliklərdən funksional şəkildə istifadə etməsinə yol göstərəcək.

3. Çox xırdalıqlara enməkdən və ya çox ümumi suallardan çəkinin, bu cür ümumiləşmiş məlumatlar əlaqələndirmə aparmaqda çətinlik yaradır. Məsələn:

*Dünyadakı ən ciddi problem hansıdır?*

*A) Təhsil* *B) Aclıq*

*C) Epidemiyalar* *D) Ətraf mühitin çirklənməsi*

Buna oxşar suallar, demək olar ki, hər kitabda olur. Çox güman ki, bunların heç doğru cavabı da yoxdur.

4. Hər sualda yalnız bir əqli fəaliyyət üzərində dayanın.

Bu tövsiyənin iki səbəbi var: öyrədilənlə yoxlanılan arasında açıq-aydın əlaqə olmalıdır. Eyni anda bir neçə məqsədə yönəlmiş sual çaşdırıcı ola bilər. İkincisi, əgər sual doğru cavabı bir neçə mərhələdən keçərək tapmağı tələb edirsə, müəllim həll mərhələlərindən hansında problem olduğunu bilməz. Problem həlletmə mürəkkəb prosesdir, buna görə də tək bir sualla yoxlanılmamalıdır.

5. Şagirdi digər sualda düzgün varianta istiqamətləndirən üsullardan yayının.

Müəyyən bir məqsəd və ya hədəf üçün variantlar yazarkən, digər sual üçün ipucu vermək mümkündür. Ehtiyatlı olun.

6. Şəxsi fikirlərə əsaslanan suallardan çəkinin.

Məsələn:

*Ən sevimli nağıl qəhrəmanı kimdir?*

*a) Tık-tık xanım* *b) Cırtdan* *c) Simurq quşu* *d) Məlikməmməd*

Bəyənmək və ya heyranlıq hiss etmək tamamilə şəxsi hisslərdir. Şagirdləri müəyyən bir məntiqi əsası, sübutu, təhlili olmayan suallarla imtahan etmək ədalətli deyil.

**Format**

1. Təqdimetmə formatını müəyyənləşdirin.

Müasir dövrümüzdə kompüter texnologiyası, printerlər testlərin daha yaxşı formatda hazırlanmasına imkan verir.

2. Tamamlama formatı əvəzinə sual formatından istifadə edin.

Araşdırmalara görə, sual forması tamamlama formasından daha münasibdir. Əslində hər iki format arasında çox az fərq olmasına baxmayaraq, sual formatı daha sadə və birbaşa xüsusiyyət daşıyır. Sual formatı birbaşa biliyi ölçməyə yönəlmişdir və tamamlama formatı əvəzinə bu üsuldan istifadə etmək tövsiyə olunur.

Tamamlama formatı istifadə olunacaqsa, kökün başında və ya sonunda boşluq buraxılmamalıdır. Ancaq, tövsiyə olunmasa da, tamamlama formatından da faydalı istifadə etmək olar. Tamamlama sualını yazmaq üçün təklif olunan yollardan biri budur: düzgün cavab və bütün digər cavablar (distraktorlar) kökü tamamlayacaq şəkildə tərtib olunmalıdır. Nümunə:

*Uşaq istismarı ......... şiddət, irqçilik isə ......... şiddətə nümunədir.*

*A) quruluşçu, təcavüzkar*

*B) fiziki, quruluşçu*

*C) *fiziki, psixoloji*

*D) psixoloji, quruluşçu*

3. Mümkün qədər ən müvafiq cavab variantı üsulundan istifadə edin.

Cavabı çoxvariantlıdan seçilən sual üsulunda şagirdlərdən səhv variantlardan doğrusunu, ya da doğru variantlardan ən uyğun olanını seçmək tələb olunur. Əksər hallarda birdən çox doğru cavab ola bilər, amma bunlardan yalnız biri ən uyğun olanıdır.

4. Variantları şaquli və ya üfüqi şəkildə yerləşdirin.

Çoxvariantlı suallar hər iki formada yazıla bilər. Ən çox istifadə olunan üsul üfüqi formada olandır. Testin görünüşü variantların yazılış formasından asılıdır. Əgər görünüş vacibdirsə, üfüqi formatdan imtina etmək lazımdır. Bəzi tədqiqatçılar kiçikyaşlı şagirdlərin üfüqi formatda yazılmış suallarda çətinlik çəkə biləcəklərini qeyd edirlər.

Başqa bir məsləhət də testin variantlarını iki sütunda yazmaqdır. Oxu ilə bağlı aparılan araşdırmaların nəticələrinə görə, şagirdlər üçün böyük bir mətni oxumaqdansa, bu cür - iki sütunda yazılmış mətnləri oxumaq daha asandır. Bu gün artıq kompüter texnologiyası sayəsində iki sütun şəklində hazırlanmış suallar asanlıqla yazılıb, çap edilir.

**Üslub**

1. Testin bütün suallarını nəzərdən keçirin və üzərində lazımi düzəlişlər edin.

Testi məqsədinə, vaxtına və digər məsələlərə görə mütləq yenidən gözdən keçirmək və düzəltməyə vaxt ayırmaq lazımdır. Bəzi suallar yazlışına görə çətinlik yarada bilər. Sualların başa düşülən şəkildə yazılması vacibdir. Hər test istifadəyə verilməzdən əvvəl yenidən nəzərdən keçirilməli və korrektə olunub təkmilləşdirilməlidir.

2. Testin söz tərkibi şagirdlərin səviyyəsinə uyğun olmalıdır.

Testdə istifadə olunan sözlər elə seçilməlidir ki, qrupun ən zəif üzvü də onu oxuyarkən anlasın. Əgər buna diqqət edilməzsə, test balları fikirləşməyi, öyrənməyi deyil, oxumaq bacarığını əks etdirəcəkdir.

3. Yazı qaydalarına əməl edin.

Hər test onu tərtib edənin güzgüsüdür. Yazı xətaları testin çox yaxşı hazırlanmadığı təəssüratını bağışlayır. Bu cür xətalar məzmuna aid edilərsə, daha böyük problem yarana bilər. Belə vəziyyətlərdə şagird «Görəsən, müəllim özü bunun düzgün cavabını bilirmi?» deyə düşünə də bilər. Mütəxəssislər bu cür səhvlərin şagirddə çaşdırıcı təəssürat yaratdığı barədə xəbərdarlıq edirlər.

4. Test edilənlərin oxumaq üçün sərf etdikləri zamanı minimuma endirməyə çalışın. Testin məhsuldarlığı testə sərf olunan maliyyə xərci və zamanla bağlıdır. Oxumaq üçün daha çox vaxt tələb edən suallar testə nəzarət müddətini də uzadır. Çox sözdən ibarət olan test oxumağa çox vaxt tələb edəcək, bu da hər bir sual üçün ayrılan müəyyən müddətdə daha az sualı cavablandırmağa səbəb olacaqdır.

Oxumağa ayrılacaq vaxt minimuma endirildikdə test edilənlərə daha çox sual vermək olar. Müəyyən vaxt ərzində soruşulan sualların sayı test ballarının etibarlılığına birbaşa təsir edən amildir. Test tərtibində vacib olan məqamlardan biri oxumağa ayrılan vaxtı minimuma endirmək, digəri isə vacib olmadıqca uzun oxuma materiallarından istifadə etməməkdir. Məsələn:

*Çingiz xan vəfat edir və övladları arasında hakimiyyət uğrunda mübarizə başlayır. Bu vəziyyət də dövlətin bölünməsinə səbəb olur. Bölünmə nəticəsində yaranan dövlətlər arasında aşağıdakılardan hansı yoxdur?*

*A) Qızıl Ordu dövləti*

*B) Çağatay dövləti*

*C) Kubilay dövləti*

*D) Ağqoyunlu dövləti*

Sualın kökündə verilən açıqlama məsələnin həlli üçün heç bir fayda vermir, əksinə lazımsız məlumat kimi oxumağa sərf olunan vaxtı artırır. Cavab variantlarında təkrarlanan sözlər də oxumağı darıxdırıcı edir. Bu sual yenidən yazılmalıdır.

*Aşağıdakılardan hansı Çingiz xanın ölümündən sonra qurulan dövlətlərdən biri deyil?*

*A) Qızıl Ordu*

*B) Çağatay*

*C) Kubilay*

*D) Ağqoyunlu*

Bəzi suallar çox uzun ola bilər. Testi tərtib edən şagirdlərin sualın düzgün cavabını tapmaq üçün uzun mətni oxumalarına ehtiyac olub-olmadığına qərar verməlidir. Ümumiyyətlə, test sualları mümkün qədər qısa olmalıdır. Burada çox sual daha yaxşı nəticə deməkdir. Daha qısa bəndlərdən istifadə edərək daha çox sual verilə bilər. Bu, mövzunu tam əhatə etməkdə də səmərəli olacaqdır.

**Sualın kökünü (əsasını) yazmaq**

1. Kökdəki fikir çox aydın olmalıdır. Sualın kökü cavab istənilən problemi açıq şəkildə, başqa şeylərlə qarışdırmadan ifadə etməlidir. Test edilən həmişə ondan nə soruşulduğuna əmin olmalıdır. Aşağıdakı kök hissə düzgün variant üçün heç bir məlumat vermir:

*Uçmaq:*

*A) Fiziki prosesdir.*

*B) Yerin cazibəsinə qarşı çıxmaqdır.*

*C) Qayğısız söhbət etməkdir.*

Test şagirdlərin istənilən hədəfə çatmasını təmin edə bilmirsə, bunun bir çox səbəbi ola bilər. Məsələn, soruşulan fikir sualın kökündə açıq şəkildə ifadə edilməmiş ola bilər.

2. Əsas fikri və mövzunun vacib nöqtələrini kök hissədə ifadə edin. Sual tərtib olunarkən kökün qısa şəkildə verilməsi və bütün məzmunun seçilən cavab variantlarında əks olunması ən çox rast gəlinən nöqsanlardandır. Məsələn:

*Kopito (ad şərtidir) şəhəri:*

*A) büdcə çatışmazlığı problemi yaşayır.*

*B) yanğınla mübarizə vasitələrinin çatışmazlığı problemini yaşayır.*

*C) polis bölmələrində maşın çatışmazlığı problemini yaşayır.*

Belə sualların cavab variantlarını oxumaq çox vaxt aparır. Sualların qiymətləndirilməsi isə mürəkkəb və çətindir. Əgər sualda əsas fikir Kopito şəhərinin bir problemi üzərində cəmlənmiş olsaydı, məzmun daha mənalı olar, variantların yükü də azalardı. Aşağıdakı nümunədə olduğu kimi:

*Kopito şəhərinin ən vacib problemi hansı sahənin çatışmazlıqlarından qaynaqlanır?*

*A) Büdcə*

*B) Yanğınla mübarizə vasitələri*

*C) Polis maşınları*

Geniş yayılmış səhvlərdən biri də variantlarda eyni sözlərin təkrarlanmasıdır.

*Sağ koronar arteriyanın laxta qan ilə tıxanması böyük ehtimalla buna səbəb ola bilər:*

*A) Sağ mədəcik və qulaqcığın yan divarının infarktı*

*B) Sol mədəciyin yan divarının infarktı*

*C) Sol mədəciyin ön divarının infarktı*

*D) Ön arakəsmənin infarktı*

Test belə yazılmalı idi:

*Sağ koronar arteriyanın qan laxtası ilə tıxanması infarktın harada yarandığı ehtimalını göstərir?*

*A) Sağ qulaqcıq və mədəciyin yan divarı*

*B) Sol mədəciyin yan divarı*

*C) Sol mədədciyin ön divarı*

*D) Ön arakəsmə*

3. Həddindən çox sözdən istifadə etməyin.

Bəzi suallarda qoyulan problemə aidiyyəti olmayan artıq sözlər olur. Ancaq bəzən isə mövzudankənar məlumatlar problem həll edərkən şagirdin problemi başa düşməsi və nələrin problem ilə bağlı olduğunu seçməsi üçün lazımlı ola bilər. Məsələn:

*Bir mağazada CD-lərin etiket qiyməti 9.99 manatdır, amma məhsullara 20 % endirim edilmişdir. Əlavə dəyər vergisi 18 %-dir. Əhmədin pul kisəsində 9.90 manat var. Bəs bu CD-ni almağa onun pulu kifayət edirmi?*

Bu sual şagirdin məsələdə verilənlərdən hansılarının lazımlı, hansılarının lazımsız olduğunu seçməsini tələb edir. Əslində bu, qaydalara uyğun sual vermək startegiyasıdır və əsla söz çoxluğu yaratmır.

**Cavab variantları yazmaq**

1. Keyfiyyətli variantları mümkün olduqca çox yazmağa çalışın.

Düzgün cavabı və aldadıcı variantları (distraktorları) yazmaq işin ən çətin hissəsidir. Sualın cavab variantlarının sayı mübahisəli məsələdir. Hər sual üçün çoxlu cavab variantı yazmağın üstünlüyü yoxdur. Yüksək səviyyədə hazırlanmış test sualı üçün 4 cavab variantı kifayətdir. Ümumiyyətlə, sualların çoxunda bir, ya da iki aldadıcı cavab variantı olur. Burda əsas məsələ nə qədər çox aldadıcı variantın yazıldığı deyil, aldadıcı variantların funksionallığıdır.

Bu yanaşmanın tənqid olunan digər bir tərəfi də şagirdin variantlar arasında doğru cavabı təxmin etməsinin aldığı ballara da təsir etməsidir. Daha az variant yazmaq şagirdin doğru cavabı təxmin etmək ehtimalını artırır.

2. Variantlardan yalnız birinin doğru cavab olmasına diqqət yetirin.

Hər sual üçün yalnız bir doğru cavab olmalıdır. Ancaq ən uyğun variant formatı istifadə olunursa, birdən çox doğru cavab da ola bilər (Məsələn: Aşağıdakılardan hansı qripin ən xarakterik əlamətidir?). Təbii ki, ən uyğun cavab formatında da ən münasib cavab «ən doğru» cavab olmalıdır. Bu, çoxvariantlı suallarda tez-tez rast gəlinən bir problemdir. Bəzən variantların bir neçəsi düz ola bilər. Bu halda birdən çox doğru cavab olduğu qəbul edilməli və buna əsasən qiymətləndirmə aparılmalıdır.

3. Doğru cavabların test suallarının cavab variantlarında paylanmasına xüsusi fikir vermək lazımdır.

Bu qaydaya diqqət etmədikdə şagirdlərin cavabı təxmin edib ballarını artırma şansları çoxala bilər. Əslində şans çox da vacib faktor deyil, çünki 100 suallıq testdə təxminlərlə 10 sualdan daha çoxuna cavab yazma ehtimalı çox azdır.

4. Cavab variantlarını məntiqi və ya rəqəm ardıcıllığı ilə sıralayın.

Rəqəmli cavablar yuxarıdan aşağı və ya aşağıdan yuxarıya doğru sıralanmış formada verilməlidir. Məsələn:

| ***Səhv*** | ***Doğru*** |
|---|---|
| *Qiyməti 200 manat olan bir məhsula 25 % endirim olarsa, qiyməti neçəyə olar?*<br>*A) 150*<br>*B) 25* | *Qiyməti 200 manat olan bir məhsula 25 %-lik endirim edilərsə, qiyməti neçəyə olar?*<br>*A) 150*<br>*B) 75* |

| | |
|---|---|
| *C) 75* | *C) 66* |
| *D) 66* | *D) 25* |

5. Oxşar cavab variantları yazmayın.

Oxşarlıq variantların bir-birinin əhatə dairəsinə asanlıqla daxil ola bilməsidir. Əgər cavab variantları oxşardısa, düzgün olmayacaq; oxşar variantlar doğrudursa, sual dəqiq olmayacaq və iki düzgün cavab ortaya çıxa bilər. Aşağıda bu vəziyyəti əks etdirən nümunə verilmişdir.

| |
|---|
| *Hansı yaşlar fiziki aktivliyin ən yüksək həddə çatdığı dövrdür?* |
| *A) 11-15*     *D) *24-32* |
| *B) 13-19*     *E) 32-dən yuxarı* |
| *C) 18-25* |

Bu cür ədədi suallarda bir-birini ehtiva edən variantlar sualı daha da çətinləşdirir. A, B, və C variantları oxşardır. Əgər düzgün variant 25-dirsə, C və D variantlarının da düzgünlüyü mübahisəlidir. Diqqətsizlik nəticəsində yaranan bu cür səhvlərə yol verilməməlidir.

6. Variantların məzmunca homogen (eynicinsli) şəkildə paylanmasını təmin edin.

Heterogen (müxtəlifcinsli) variant yazmaq şagirdi istiqamətləndirir. Şübhəsiz ki, bu cür istiqamətləndirmələr qəsdən deyil, təsadüfən baş verir. Variantların məzmunca bircinsli olaraq paylanılması məsləhətdir.

7. Cavab variantlarının uzunluğunun yaxın ölçüdə olmasına fikir verin.

Variantları yazarkən geniş yayılmış səhvlərdən biri də düzgün variantın digərlərindən uzun yazılmasıdır. Sualı tərtib edənlər əvvəlcə onun kökünü, sonra doğru cavabı və daha sonra tələm-tələsik aldadıcı variantları yazırlar; çox vaxt bu aldadıcı variantlar doğru cavabdan daha qısa olur. Məsələn:

| |
|---|
| *... Buna görə də, bir çox insanın cəmiyyətdə nöqsanlar etdiklərini görürük. Bu nöqsanların aradan qaldırılması onların arasından çıxan kamil insanların köməyilə mümkün olacaqdır.* |
| *Fikir axınına görə paraqrafın əvvəlinə bunlardan hansı əlavə olunmalıdır?* |
| *A) İnsanlarda olan güclü hirs, nəfs kimi mənfi hisslər insanın cəmiyyətə qarşı vəzifəsini icra etməsinə mane olur.* |
| *B) Dəyəri yüksək bir insan, fərd bir millətə, bir cəmiyyətə bədəldir.* |
| *C) Bir millətin şahı onlara xidmət edəndir.* |
| *D) Millət üçün yaşayan insanlar xalqa xidmət etməyi, mövqe sahibi olmağı üstün tutur.* |

Əgər ən uzun variant aldadıcıdırsa, bu halda sual şagird üçün tələ suala çevrilir.

8. «Aşağıdakılardan heç biri» və ya «Aşağıdakıların hamısı» kimi variantlar yazmayın.

Araşdırmalar «Aşağıdakılardan heç biri» kimi başlıqlı sualların faydasız olduğunu göstərmişdir. «Aşağıdakıların hamısı» geniş yayılmış bir variantdır. Bunun istifadə səbəbi bəlkə də iki, hətta üç doğru cavabın asanlıqla yazıla bilməsidir. Bu cür variantdan istifadə test həllində peşəkarlaşmış şagirdlər üçün asan yol olur. Məsələn, şagird ona təqdim olunan variantlardan bir neçəsinin düzgün olduğunu bilirsə, bu məlumat onu birbaşa «Aşağıdakıların hamısı» variantlarına istiqamətləndirəcəkdir. «Aşağıdakıların hamısı» variantını istifadə etmək birbaşa biliyi ölçmək əvəzinə şagirdin testi cavablandırma startegiyalarını bilib-bilmədiyini ölçmək deməkdir, buna görə də bu cür variantdan istifadə məsləhət görülmür.

9. «Bilmirəm» variantından istifadə etməyin.

Şagird həqiqətən düzgün cavabı bilmirsə və «Bilmirəm» variantını işarələyibsə, əslində doğru varinatı işarələyib deməkdir və onun bu doğru cavabı nəzərə alınmalıdır.

10. Variantları feilin inkar formasında deyil, təsdiq formasında yazın.

Belə suallar lazımsız çətinlik yaradır. Çünki süni formada çətinləşdirilmiş suallar yüksək test ballarının etibarlılığını azaldacaqdır. Buna görə feilin inkar formasında işlənən variantlarından istifadə edilməməlidir.

11. Şagirdi doğru cavaba istiqamətləndirən variantlardan istifadə etməyin.

Bu, variant yazmaqda geniş yayılmış istiqamətləndirmələrlə əlaqəlidir.
1) Sözün əlavə mənası, 2) Məntiqə uyğun olmayan variantlar, 3) Formal xatırlatmalar, 4) Qəti və açıq-aydın təsbit etmə, 5) Xətalı yazı.

Sözün əlavə mənası sualın əsasında edilən qeydlərin variantlarda da təkrarlanmasıdır. Bu cür əlaqə şagirdi doğru cavaba istiqamətləndirir. Məsələn:

| |
|---|
| *«Möhtəşəm yeddilik» kimlərdir?*<br>*A) Peşəkar basketbol komandası*<br>*B) *Yeddi nəfərdən ibarət uydurma döyüş qəhrəmanı*<br>*C) Bir qrup ekoloq*<br>*D) Musiqi qrupu* |

B variantında «yeddi» sözü əslində sualın cavabını həqiqətən bilməyən bir şagirdi açar sözə istiqamətləndirir.

Məntiqə zidd olan variantlar bəzən yumorla yazıla biləcəyi kimi, səhvən də meydana çıxa bilər. Məntiqə uyğun olmadığı üçün heç bir şagird onu seçmir. Məntiqə

uyğun olmayan variantların istifadəsi sualdakı aldadıcı variantların sayını azaldır. İstiqamətləndirmə formasının üçüncüsü formal xatırlatmalardır; variantların təqdimindən qaynaqlanan istiqamətləndirmədir.

| |
|---|
| *Hansı sürünənlərə nümunədir?*<br>*A) Ayı* *B) Tülkü*<br>*C) Canavar* *D) *Dinozavr* |

Variantların ilk üçü son variantdan çox fərqlidir. Əgər dörd variantdan üçü bir-birilə bağlıdırsa, şagird, təbii olaraq, «Tək qalan doğru olandır» deyə fikirləşəcək. Burada əsas fikir budur: cavab variantlarında bir doğru cavab və distraktorlar homogen olmalıdır.

12. Ağlabatan aldadıcı cavab variantları yazın.

Cavabları çoxvariantlı suallardan ibarət testlər bilik və bacarıqları ölçmək üçün tərtib olunur. Buna görə də düzgün variant həqiqətən doğru, aldadıcı variantlar da açıq-aydın yanlış olmalıdır. Aldadıcı variant yazmağın qızıl qaydası ağlabatan və məntiqə uyğun olmasıdır. Bunun altında gizlənmiş məntiq belədir ki, məlumatı bilən düzgün cavab verir, bilməyən isə yanlış. Mövzunu bilməyən şagirddə ağlabatan və məntiqə uyğun distraktor düzgün cavab təəssüratı bağışlayır. Aldadıcı variantların məntiqə uyğun olub-olmadığı statistik üsullarla müəyyən oluna bilər. Məntiqə zidd olmayan aldadıcılar yazmaq heç də asan deyil və çoxvariantlı sual yazmağın ən çətin mərhələsidir. Aşağıdakı nümunəni araşdıraq:

| |
|---|
| *Elnur nə üçün ev tapşırığını müəllimə təhvil vermədi?*<br>*A) Bacısına baxmaq üçün evdə qaldı.*<br>*B) Timsahı xəstələnmişdi.*<br>*C) Tapşırığı it yedi.* |

Birinci variant məntiqə uyğun olduğu halda B və C variantları olduqca fərqli variantlardır.

13. Aldadıcı variantları yazarkən şagirdlərin əsas səhvlərindən istifadə edin.

Şagirdlərin imtahan vərəqlərindəki cavablar həqiqətə uyğun yaxşı mənbə ola bilər. Orada ən çox təkrarlanan səhv cavab ən münasib aldadıcı variant ola bilər. Test yazarkən ən yaxşı aldadıcılar bu mənbədən seçilə bilər. Aldadıcı variantlar üçün düzgün, amma mövzuyla əlaqəsi olmayan variantlara üstünlük verin. Məntiqə uyğun aldadıcılar üçün bir-birinə yaxın və digər variantla əlaqəsi olmayan, ancaq təqdim olunan mətn üçün tamamilə yanlış variantlar tapmaq lazımdır. Məsələn:

| |
|---|
| *Tərkibində ən çox kalium olan meyvə hansıdır?*<br>*A) Portağal* *B) *Banan*<br>*C) Alma* *D) Qreypfrut* |

Düzgün variant «banan» olduğu halda digər variantların bəziləri də başqa maddələr üçün doğru ola bilər. Məsələn: «Hansı ən yaxşı protein mənbəyidir?», ya da «Hansı ən yaxşı C vitamini mənbəyidir?» kimi.

14. Yumorlu ifadələrdən istifadə etməyin.

Yumor hər nə qədər öyrənmə və öyrətmə prosesində səmərəli olub, təlim mühitini zənginləşdirsə də, ancaq test variantları üçün məsləhət görülmür. Yumorlu variantlar məntiqə uyğun aldadıcıların sayını azalda bilər.

**Mənbə:**
**http://www.aoa.edu.tr/ozder/files/ogrenci_merkezli_egitim_uygulama_modeli.pdf**

**Hazırladı: Günel Qasımova**